# Azərbaycançılıq ideologiyasının təbliğatçısı

## *Nizami Cəfərovun elmi əsərləri haqqında*



Famil Mədət

Nizami Cəfərov uzun illərdir ki, məhsuldar elmi fəaliyyəti ilə hamının rəğbətini qazanıb. Bu gün də o, qələmi əlindən yerə qoymur, ədəbiyyatşünaslıq, ədəbi tənqid, türkologiya, dilçilik və bir sıra məsələlərə dair orijinal, bənzərsiz yanaşma tərzi ilə seçilən əsərlər ortaya qoyur.

N.Cəfərov istənilən araşdırmasında tədqiq etdiyi predmetə miqyaslı baxış bucağı sərgiləyir, sosial-ictimai gerçəkliyin ümumi məntiqindən çıxış etməklə dar çərçivəli düşüncənin lokal məkanından qaçır. Bununla da o, tədqiqatlarına obyektivlik, inandırıcılıq və ən əsası subyektivlikdən uzaqlaşmış olur. Sözügedən prinsiplər müəllifin aşağıdakı kitablarında da əks olunmuşdur: “Türkologiyaya giriş”, “Türkün dünyasından türk dünyasına”, “Ədəbiyyatın müstəqilliyindən müstəqilliyin ədəbiyyatına”, “Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları” (V.Sərdarov və A.Cəfərovla birgə) və “Məqalələr” (Tofiq Hacıyevlə birgə) Kifayət qədər dərin məzmuna, aydın intellektual düşüncədən qaynaqlanan ümumiləşdirmə gücünə malik bu kitablar müəllifin yalnız 2016-cı ildə hasilə gətirdiyi yaradıcılıq məhsullarıdır ki, bu da N.Cəfərovun həm də məhsuldar fəaliyyətini göstərir.

N.Cərəfovun Vüqar Sərdarov və Altay Cəfərovla birgə yazdığı “Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları” adlı kitabı milli ideologiyamızın müəyyən mənada konkret bir sahəsini və onun sütunlarından olan etnoqrafik əsaslarının incə məqamlarını üzə çıxarmış və onu sistemli tədqiqatın predmetinə çevirmişdir. Ümumiyyətlə, N.Cəfərov öz tədqiqatlarında azərbaycançılıqdan fraqmental səpkidə deyil, sistemli, ardıcıl bəhs edir. O hələ illər öncə nəşr etdirdiyi “Azərbaycanşünaslığa giriş” monoqrafiyasında azərbaycançılıq ideologiyasından ümumnəzəri aspektdə bəhs etmiş, tarixi, etnoqrafik, bədii və s. mənbələr əsasında milli ideologiyamızın sistem əsasında təhlilini aparmışdır. Bu kitabda isə azərbaycançılıq ideologiyası Azərbaycan xalqının uzun əsrləri əhatə edən etnoqrafik kökləri əsasında sistemli tədqiqata cəlb edilib. Ümumiyyətlə, istənilən bir ideologiyanı əhatəli dərk etmək üçün onun bünövrəsində hansı sosial-ictimai və mədəni-mənəvi amillərin dayanmasını nəzərə almaq vacibdir. Kitabda müəlliflər haqlı olaraq milli ideologiyanın əsaslarının inkişaf və təşəkkülünün tarixini araşdıraraq bu qənaətə gəlirlər ki, azərbaycanlılıq etnik kökü etibarilə ən əski çağlara gedib çıxır: “Azərbaycançılıq ideologiyası, etnoqrafik köklərini də nəzərə alsaq, heç şübhəsiz, Azərbaycan xalqı ilə yaşıddır. O mənada ki, hər bir xalq tarix səhnəsinə çıxa-çıxa öz milli ideologiyasının etnoqrafik əsaslarını da yaradır”.



Azərbaycançılıq ideologiyası daha dərin qatlardan gələn etnoqrafik əsaslara malikdir ki, bunlar zəngin sözlü ədəbiyyatdan, dastan və xalq şeiri örnəklərdən, Nizami, Nəsimi, Füzuli kimi klassik mütəfəkkirlərin yaradıcılıqlarından ibarət olaraq bu əsərdə tarixi ardıcıllıq prinsipi üzrə təhlil olunmuşdur. Azərbaycan xalqının “tərcümeyi-hal”ından, etnik mənlik şüurunun formalaşmasından tutmuş onun milli dövlət quruculuğu, milli dövlətçilik təfəkkürünə qədərki geniş zamanın elmi-nəzəri təhlili burada aydın elmi şərhini tapmışdır.

Çox zaman milli ideologiyanın güclənməsi milli dövlətçilik şüurunun dirçəlməsi ilə üst-üstə düşür. Müstəqil idarəçilik sistemi olmayan xalqın bir sıra mənəvi dəyərləri yad etnik ünsürlərlə zədələndiyi kimi, onun milli ideoloji-siyasi sistemi də təsirlərə məruz qalaraq inkişafla ayaqlaşa bilmir. “Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları” kitabından məlum olur ki, Səməd Vurğun başda olmaqla sənət adamlarının azərbaycançılıq ideologiyasını tərənnüm etməsi bu irsin gələcək nəsillərə daşınması və geniş kütlənin ictimai-siyasi şüuruna təsir etməsi mənasında əhəmiyyətlidir. H.Əliyevin ictimai-siyasi müstəvidə gördüyü böyük işlər azərbaycançılığı dövlət siyasəti səviyyəsində himayə etdi, onun siyasi əsaslarını formalaşdırdı. Xüsusən Sovet İmperiyası kimi türkçülüyə və azərbaycançılığa düşmən bir ideologiyanın hökm sürdüyü bir dövrdə ulu öndər Heydər Əliyev milli dilə, milli mədəniyyətə və bu irsi yaradanlara xüsusi rəğbətlə və qayğıkeşliklə yanaşıb ki, bütün bunlar kitabda öz əksini tapmışdır.

Nizami Cəfərovun “Türkologiyaya giriş” adlı kitabı türkologiyanın aktual problemlərindən bəhs edir. Bu kitab da müəllifin digər əsərləri kimi universal biliyin və orijinal təfəkkürünün məntiqi davamı kimi araya-ərsəyə gəlib. Müəllif konkret və dar çərçivədən deyil, geniş dairədən türk xalqlarının ədəbi-bədii düşüncəsinə baxmaq üçün yeri gəldikdə dilçi, mədəniyyət tarixçisi, ədəbiyyatçı və bəzən də bu elmlərin bir bütöv halda vəhdətindən çıxış edir. Türk xalqlarının əski tarixi, ilk türk imperiyaları, türk dövlətçilik şüuru və s. məsələlər fonunda türk ədəbiyyatına, bədii düşüncəsinə, dastançılıq və eposçuluq təfəkkürünə nəzər yetirən N.Cəfərov mədəniyyət tariximizin incə məqamlarına işıq salır.

“Türkologiyaya giriş” əsəri zamanında yazılmaqla bu gün üçün də aktual elmi əhəmiyyətə malikdir. Artıq bir sıra türk xalqları müstəqilliyini bərpa edib, əsarətdə olan türk xalqları da artıq bu boyunduruğu qəbul etməyərək milli kimliklərini dərk etməkdədir. Belə bir şəraitdə türk xalqlarının milli birlik və tarixi keçmişini onlara yenidən xatırlatmağa, bu istiqamətdə istər elmi, istərsə də praktik olaraq fəaliyyət proqramı hazırlamağa ehtiyac var. Bu mənada N.Cəfərov ikitərəfli fəaliyyəti ilə seçilir - istər türkologiyaya dair yazdığı kitabları, məqalələri ilə, istərsə də Atatürk Mərkəzinin direktoru kimi türklərin sosial-siyasi və mədəni-mənəvi təşkilatlanmasında göstərdiyi fəaliyyəti ilə. O “Türkün dünyasından türk dünyasına” adlı türkoloji etüdlər toplusu olan kitabında uzaqgörənliklə belə yazır: “Müasir dövrdə türk xalqlarının siyasi iradəsinin təzahüründən söhbət gedəndə, tarix elə gətirib (və bu tamamilə təbiidir) ki, rəsmi Bişkek var, rəsmi Bakı var, rəsmi Ankara var (heç şübhə etmirəm ki, çox keçmədən rəsmi Kazan, rəsmi Ufa, rəsmi Sıktıvkar, rəsmi Ağməscid, rəsmi Yakutsk, rəsmi Altay... da olacaq...)

Yeri gəlmişkən, onu da qeyd edək ki, məqaləmizdə əsasən N.Cəfərovun ötən il yazdığı kitablarından bəhs etdik. Onun yaradıcılığında həmişə azərbaycançılıq ideologiyası qızıl xətlə keçib və son bir ildəki araşdırmalarında özünün daha təkmil, daha sistemli ifadəsini tapıb.

4 fevral 2017
www.KASPI.AZ